# 44 günlük savaşımızın qəhrəmanı

## Vətən üçün canından keçən şəhid Elməddin İbrahimlinin döyüş yolu

**Yağı tərəfindən əsir düşən cənnət- məkan Qarabağımızın azadlığı uğrunda başlanan müharibə meydanına Elməddin Zeynəddin oğlu İbrahimli birincilər sırasında girib. Bu da onun Vətənini ürəkdən sevdiyindən və hər qarış torpağını özünə əziz bildiyindən irəli gəlib. 44 günlük haqq savaşımızda yağıya qarşı son damla qanına qədər döyüşüb, müqəddəs şəhidlik zirvəsinə ucalmaqla 21 yaşında Azərbaycan xalqı üçün qəhrəmanlıq simvoluna dönüb. Bu gün Vətən göylərində ruhu dolaşan, adı dillər əzbəri olan Elməddin İbrahimlinin şərəfli ömür yolu hər kəs üçün əsl həyat məktəbidir. Həmçinin onun layiq görüldüyü "Vətən uğrunda", "İgidliyə görə", Cəbrayılın və Kəlbəcərin azadlığı uğrunda medalları doğmalarına yaxşı təsəllidir.**

Elməddin Zeynəddin oğlu İbrahimli 1999-cu il noyabrın 19-da Cəlilabad rayonunun Hacıcavadlı kəndində anadan olub. El-obada tanınan, sevilən Elməddin Qarabağımızı işğal altında saxlayan dığalardan qisas almaq məqsədilə orduya gedib, Vətəninə olan oğulluq borcunu şərəflə yerinə yetirib. Mərdliyi, cəsurluğu, təmiz vicdanı ona xidmət etdiyi hərbi hissədə hamının sevgisini qazandırıb. Təlimlər zamanı fəallığı, görüb-götürmək bacarığı döyüş meydanında yağının başını məqamında əzmək üçün olub.



Azərbaycan Ordusunun kiçik giziri olan Elməddin İbrahimlinin 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı döyüş yolu Qarabağın qaynar bölgələrdən başlayıb. Girdiyi hər ağır ölüm-dirim savaşda yenilməz qəhrəmanlıqlar göstərib, düşmənin hərbi texnikasını, onlarla canlı qüvvəsini məhv etməklə onların kabusuna çevrilib. Hətta onun adı çəkiləndə erməni dığaları təlatümə düşüb. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun hər qarışında vuruşub. 16 oktyabra kimi qatıldığı döyüşlərdən yalnız zəfər sorağı gəlib. Son dəfə Füzulidə düşmənə qan qusdurub. Vətənin yaşaması naminə sinəsini düşmən gülləsinə sipər edən igid döyüşçü elə burada əbədiyyətin ən uca, əlçatmaz, ünyetməz zirvəsinə ucalıb. Şərəfli ölümü ilə ürəklərdə özünə əbədi yurd-yuva quran şəhid Elməddin İbrahimli doğma kəndində torpağa tapşırılıb.

Müqəddəs şəhidlik zirvəsindən gələcəyə boylanan, ölümsüzlüyə qovuşan şəhid Elməddin İbrahimli mənən diri qalmaqla qərinələr boyunca daim xatırlanar. Vətən, torpaq uğrunda can qoyanlar heç zaman ölmürlər.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**